Azərbaycanın dövlətçilik tarixində Fətəli xan Xoyskinin rolu

Lalə Əsədova,
Azərbaycan Respublikasının Təhsil İnstitutunun böyük elmi məsləhətçisi,
pedaqogika üzrə fəlsəfə doktoru

Milli dövlətçilik köklərimizin, xüsusilə Şərq dünyasında ilk demokratik respublikanın təməlini qoymuş böyük şəxsiyyətlərin irsinin öyrənilməsi bu gün xüsusi aktuallıq təşkil edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Fətəli xan Xoyskinin 150 illik yubileyinin keçirilməsi haqqında" 17 sentyabr 2025-ci il tarixli Sərəncamı ilə Fətəli xan Xoyskinin150 illik yubileyinin ölkə səviyyəsində geniş qeyd olunması, onun dövlətçilik tariximizdəki parlaq yerinə və milli irsimizə verilən yüksək dəyərin bariz təzahürüdür (1).

Fətəli xan Xoyski 1875-ci il noyabrın 25-də (yeni stillə dekabrın 7-də) Nuxa (indiki Şəki) şəhərində anadan olmuşdur. O, 1892-ci ildə Yelizavetpol (Gəncə) klassik gimnaziyasını bitirdikdən sonra Moskva Universitetinin hüquq fakültəsinə daxil olmuş, 1897-ci ildə Universiteti birinci dərəcəli diplomla bitirmişdir (3). F. Xoyski 1897-1907-ci illərdə Yelizavetpol, Kutaisi, Yekatirinodar dairə məhkəmələrində müxtəlif vəzifələrdə çalışmışdır. Yekaterinodar dairə məhkəməsində prokuror müavini təyin edilməsi Xoyskinin ictimai-siyasi fəaliyyətində yeni mərhələ olmuşdur (2). O, Yelizavetpol (Gəncə) quberniyasından II Dövlət dumasına deputat seçilmişdir. Dumanın bır sıra iclaslarında çıxış edən Fətəli xan çar hökumətinin Zaqafqaziyada və Azərbaycanda yeritdiyi müstəmləkəçilik siyasətini tənqid etmişdir. O, kadet partiyasına üzv olmasına baxmayaraq, dumanın müsəlman deputat fraksiyasına daxil idi. F. Xoyski Rusiyanın müstəmləkəsindəki xalqlara məhəlli muxtariyyət verilməsini hökumətdən tələb etmişdir. II Dövlət Dumasından qovulduqdan sonra Yelazavetpola gələn F. Xoyski 1907-1912-ci illərdə andlı iclasçı işləmişdir. F. Xoyski 1913-1917-ci illərdə Bakıda dairə məhkəməsində andlı iclasçı kimi fəaliyyət göstərmişdir (7). 1917-ci il Fevral inqilabından və Oktyabr çevrilişindən sonra F. Xoyskinin fəaliyyətində yeni bir mərhələ başlanmışdır. O, siyasi və ictimai mübarizəyə daha fəal surətdə qoşulmuş, qısa müddət ərzində Azərbaycan

xalqının azadlığı və müstəqilliyi uğrunda aparılan hərəkatın liderlərindən birinə çevrilmişdir. Fətəli xan Xoyski martın 29-da Bakıda yaranmış Milli Müsəlman Şurasının Müvəqqəti İcraiyyə Komitəsinin üzvü seçilmiş, bu təşkilatın gərgin fəaliyyəti nəticəsində həmin ilin aprelində Bakıda çağrılan Qafqaz müsəlmanlarının qurultayında iştirak etmişdir. O, 1917-ci ilin dekabrında yaranan Zaqafqaziya Seyminin üzvü və 1918-ci ilin aprelində müstəqil elan edilən Zaqafqaziya Federativ Respublikası hökumətinin Ədliyyə naziri olmuşdur. 1918-ci il mayın 26-da Zaqafqaziya Seyminin sonuncu iclasında Seymin buraxılması və Gürcüstanın müstəqilliyinin elan edilməsi barədə qərar qəbul edildi. Bununla əlaqədar olaraq mayın 27-də Müsəlman fraksiyasının fövqəladə iclası keçirilmiş və M.Rəsulzadənin sədrliyi ilə Müvəqqəti Milli Şura və F. Xoyskinin sədrliyi ilə Milli Şuranın İcra Komitəsi yaradıldı. Müvəqqəti Milli Şuranın 1918-ci il mayın 28-də keçirilən iclasında Azərbaycanın müstəqilliyini bəyan edən akt qəbul olundu (7).

Bu İstiqlal Bəyannaməsini imzalayan 24 nəfərdən biri F. Xoyski olmuşdur. Həmin iclasda Milli Şura F.Xoyskiyə Azərbaycan Xalq Cümhuriyyəti hökumətini təşkil etməyi tapşırdı. F. Xoyski bir saatlıq fasilədən sonra Milli Şuranın iclasına hökumətin tərkibini təqdim etmişdir. F. Xoyski burada Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının ilk Baş naziri və Daxili İşlər naziri vəzifələrinə təyin edilmişdir. 1918-ci il iyunun 17-də Azərbaycan Milli Şurasının göstərişinə əsasən, Fətəli xan Xoyskinin başçılığı ilə ikinci hökumət kabinəsi təşkil olunmuşdur.

F. Xoyski ikinci hökumətdə də Baş nazir və Ədliyyə naziri vəzifələrini tutmuşdur. F. Xoyski 1918-ci il dekabrın 26-da təşkil etdiyi III hökumət kabinəsində də Baş nazir və Xarici İşlər naziri vəzifələrini tuturdu. Fətəli xan Xoyskinin rəhbərlik etdiyi dövrün ən vacib addımları bunlar olmuşdur (6):

1. Milli Hökumətin Bakıya köçürülməsi. Qafqaz ordusu ilə birlikdə Bakının azad olunması (15 sentyabr 1918) və hökumətin Bakıya gəlişi.

2. Ana dilinin dövlət dili elan edilməsi. 27 iyun 1918-ci il tarixi qərarla Azərbaycan dili dövlət dili elan edildi.

3. Dövlət atributlarının təsbit olunması. Dövlət bayrağı, gerb, ordu quruculuğu və inzibati islahatlar həyata keçirildi.

1919-cu ilin mart ayında Fətəli xan Xoyskinin başçılıq etdiyi hökumət istefaya verilmişdir. Daha sonra Fətəli xan Xoyski Nazirlər Şurasının sədri N. Yusifbəylinin təşkil etdiyi beşinci hökumət kabinəsində Xarici İşlər naziri olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq aləmdə və xarici dövlətlər tərəfindən tanınmasında Fətəli xan Xoyskinin əsaslı xidmətləri olmuşdur. Məhz onun dövründə Azərbaycan dövlət orqanlarının özülü qoyulmuşdur. Müstəmləkə siyasətinin rəmzi olan Yelizavetpol şəhəri və quberniyasının yenidən Gəncə və Gəncə quberniyası adlandırılması, Qaryagin qəzasının Cəbrail qəzası adı ilə əvəz edilməsi, çoxpartiyalı parlament sisteminin yaradılması, Azərbaycanın pul və poçt markalarının buraxılması, Azərbaycan dilinin dövlət dili elan edilməsi və milli məktəblərin və seminariyaların açılması, Bakının işğaldan azad edilərək paytaxt köçürülməsi (sentyabr, 1918), Azərbaycan Cümhuriyyətinin beynəlxalq arenada (Versal sülh konfransında) digər dövlətlər tərəfindən de-fakto tanınmasına nail olunması məhz Xoyskinin rəhbərlik etdiyi hökumət kabinələri dövründə həyata keçirilməyə başlanmışdır (4). Fətəli xan çox qısa, 44 ildən bir qədər çox ömür yaşadı. Ömrü qısa olsa da, gördüyü böyük işlərlə adını Azərbaycanın müstəqillik tarixinə əbədi həkk edə bildi. Fətəli xan 1920-ci il iyunun 19-da Tiflisdə erməni-terror təşkilatı "Nemezis"in üzvləri muzdlu qatil Aram Yerkayan və Misaq Qriqoryan tərəfindən arxadan güllə ilə vurulmuş və Tiflisdə Nəbatat bağında M.F.Axundovun yanında dəfn edilmişdir (5).

Dövrün ziyalıları və siyasi xadimlərinin qeyd etdikləri kimi Fətəli xan əslən aristokrat, qəlbən demokrat, əməldə isə dövlətşünas və qanunçu idi. O, mənsub olduğu xan nəslinin alicənablığını müasir Avropa hüquq mədəniyyəti ilə birləşdirərək yeni Azərbaycanın təməlini qoydu. Böyük Britaniya Qoşunlarının Komandanı general Uilyam Tomson belə ilk vaxtlar Cümhuriyyət Hökumətini tanımaqdan imtina etsə də, Fətəli xan Xoyski ilə diplomatik danışıqlardan sonra mövqeyini dəyişmişdir. Tomson bildirirdi: "Mən Bakıya gələrkən qarşımda imperiya qalıqları görəcəyimi sanırdım. Lakin Fətəli xan Xoyski ilə tanışlıqdan və onun idarəşilik qabiliyyətini gördükdən sonra əmin oldum ki, bu hökumət həqiqi demokratiya və hüquq prinsipləri üzərində qurulmuş tam müstəqil bir dövlət aparatıdır".

Bu gün müstəqil, ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş müasir Azərbaycan Respublikası - Fətəli xan Xoyski və onun silahdaşlarının xəyal etdiyi və uğrunda canlarını fəda etdikləri Zəfər Azərbaycanıdır.

Fətəli xan Xoyskinin həyat yolu və fəaliyyəti eyni zamanda bizə tarixi yaddaşın əhəmiyyətini göstərir. Keçmişimizi tanımaq yalnız tarixi hadisələri xatırlamaq deyil, bu, həmin hadisələrdən nəticə çıxarmaq, dövlətimizin formalaşması uğrunda çəkilmiş zəhməti qiymətləndirmək və gələcək qarşısında məsuliyyətimizi dərk etməkdir. Bu gün Fətəli xan Xoyskinin yubileyini qeyd edərkən onun irsinə yalnız keçmişin xatirəsi kimi deyil, müasir Azərbaycan üçün də əhəmiyyət daşıyan dövlətçilik və vətənə xidmət nümunəsi kimi yanaşmalıyıq.

A.A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutunda elmi işlər üzrə direktor müavini tarix elmlər doktoru, dosent İlqar Niftəliyev Azərbaycan dövlətçilik tarixində Fətəli xan Xoyskinin müstəsna xidmətlərindən, siyasi fəaliyyətinin milli dövlət quruculuğunda oynadığı roldan bəhs edərək haqlı olaraq bildirir ki, Xoyski şəxsiyyəti, fəaliyyəti və ideyaları müasir dövrdə aktual olaraq elmi tədqiqatların diqqət mərkəzindədir.

Dini etiqadına görə Fətəli xan Xoyski şiə müsəlmanı idi. O, rus, və Azərbaycan dillərini bilirdi. Lakin F. Xoyski Azərbaycan dilində çətinlik çəkərək danışırdı. AXC dövründə F. Xoyskinin bəzi qohumları görkəmli dövlət və inzibati vəzifələri tuturdular (Böyük qardaşı Hüseynqulu xan Xoyski bir müddət Gəncə qubernatorunun müavini olmuşdu. Kiçik qardaşı Rüstəm Xan Xoyski Fətəli xan Xoyskinin hökumətində himayədarlıq naziri olub.

Dövlətimiz F.Xoyskinin xidmətlərini yüksək qiymətləndirmişdir.

Bakı şəhərinin prospektlərindən birinə Fətəli xan Xoyskinin adı verilmişdir.

1997-ci ildə Azərbaycanda Xoyskiyə həsr olunmuş poçt markası buraxılmışdır.

Dəfn olunduğu yerdə, yəni Tbilisi nəbatat bağının ərazisində qəbirüstü abidəsi ucaldılmışdır.

Gəncədə Atatürk prospektində onun barelyefi qoyulmuşdur.Bakıda İstiqlaliyyət küçəsində Fətəli xan Xoyskinin 1918-ci ildən 1920-ci ilədək yaşamış olduğu evin divarında da barelyef qoyulmuşdur.

Şəkidə əvvəllər Karl Marks adını daşımış küçənin adı "Fətəli xan Xoyski"yə çevrilmişdir.

Fətəli xan Xoyskinin ailəsinə gəlincə, qeyd etmək lazımdır ki, Fətəli xan İsgəndər xan oğlu Xoyskinin Ulu babası Xoy xanı Cəfərqulu xan idi. Atası İsgəndər xan Xoyski Rusiya imperiyası ordusunda general-leytenant olmuş, anası Şərəbanı xanım isə Hacı Molla Zeynalın qızı idi. Həyat yoldaşı - Ceyran xanım idi. Fətəli xan Xoyski 1901-ci ildə Yevgeniya Vasilyevna adlı xanımla ailə qurmuşdu. Mənbələrdə onun sonradan İslam dinini qəbul etdiyi və Ceyran xanım adını aldığı bildirilir. Bəzi mənbələrdə həyat yoldaşının adı Yelizaveta Vasilyevna kimi də göstərilir. Onların üç övladı olmuş və hər üçü Gəncə şəhərində dünyaya gəlmişdir.

1. Tamara Xoyskaya (1902-1990).

Fətəli xan Xoyskinin yeganə qızı idi. O, Mirzə Davud Hüseynovla ailə qurmuşdu. Hüseynov sovet dövründə Azərbaycanda və Tacikistanda yüksək siyasi vəzifələrdə çalışmışdır.

1938-ci ildə həyat yoldaşının repressiyaya məruz qalmasından sonra Tamara xanımın da həbs edildiyi və uzun müddət həbsdə qaldığı bildirilir. O, 1990-cı ildə vəfat etmişdir.

2. Murad Xoyski (1910-1973).

Fətəli xan Xoyskinin böyük oğlu idi. Tarixi bioqrafik mənbələrdə onun Bakıda nəqliyyat idarəsində çalışdığı qeyd olunur. Murad Xoyski haqqında açıq mənbələrdə digər ailə üzvləri ilə müqayisədə daha az məlumat mövcuddur.

Tamara Xoyski - Fətəli xan Xoyskinin oğlu Muradın yeganə qızıdır. Hazırda Bakı məktəblərinin birində kimya müəllimi işləyir. Qeyd edək ki, Fətəli xan Xoyskinin yeganə qızının adı da Tamara olub. Məhz onun adının şərəfinə Murad Xoyski öz qızına Tamara adını qoyub.

3. Ənvər Xoyski (1914-1935)

Fətəli xan Xoyskinin kiçik oğlu idi. O, 21 yaşında vəfat etmişdir. Mənbələrdə Ənvər Xoyskinin Moskvada əməliyyatdan sonra, diabet xəstəliyi ilə əlaqədar yaranmış ağırlaşmalar nəticəsində dünyasını dəyişdiyi bildirilir.

Xoyskilər nəslinin digər tanınmış nümayəndələri.

Fətəli xan Xoyskinin qardaşları da Azərbaycanın ictimai-siyasi və hərbi tarixində müəyyən rol oynamışlar:

Hüseynqulu xan Xoyski - hərbi xadim, müəyyən dövrdə Gəncə qubernatorunun müavini olmuşdur. Hüseynqulu xan Xoyski 22 sentyabr 1870-ci ildə (qəbrində 1871-ci il yazılmışdır) Gəncə şəhərində dünyaya gəlmişdi. Əsli-nəsli Cənubi Azərbaycanın Xoy şəhərindən idi. Vladiqafqaz progimnaziyasını bitirmişdi. 22 iyul 1887-ci ildə 45-ci draqun Şimal alayında hərbi xidmətə başlamışdı. Polkovnik Hüseynqulu xan Xoyski 1955-ci ildə İstanbulda vəfat etmiş və orada da dəfn olunmuşdur (6).

Rüstəm xan Xoyski - Əslən Cənubi Azərbaycanın Xoy şəhərindən olan, sonradan Şəkidə məskunlaşan Xoyski ailəsinə mənsub Rüstəm xan, 1888-ci ilin 5 noyabr tarixində Gəncə şəhərində doğulmuşdur. Gəncə Gimnaziyasını bitirdikdən sonra 1913-cü ildə Sankt-Peterburq Universitetinin hüquq fakültəsindən məzun olmuşdur Azərbaycan Xalq Cümhuriyyəti hökumətində himayədarlıq (sosial təminat) naziri vəzifəsini icra etmişdir. 28 aprel işğalından sonra Rüstəm xan Bakıda qalmış və Azərbaycan SSR Ali İqtisadi Şurasının rəyasət heyətinin katibi vəzifəsində çalışmışdır. Bundan əlavə, o, Bakı və Moskvada korperativ hüquqşünas kimi də işləmişdir. Sonralar Moskvaya köçmüş və 1948-ci ildə orada vəfat etmişdir. Rüstəm xan Xoyski Novodeviçye qəbiristanlığında dəfn edilmişdir (4).

Cahangir xan Xoyski - peşəkar hüquqşünas, fəal ictimaiyyətçi və Azərbaycan Xalq Cümhuriyyətinin ilk Baş naziri Fətəli xan Xoyskinin böyük qardaşıdır. Onun həyatı və fəaliyyəti barədə əsas məlumatlar aşağıdakılardır. Rusiya İmperiyası dövründə titulyar müşaviri mülki rütbəsinə malik olub. Peşəkar hüquq məsləhətçisi kimi tanınan Cahangir xan, 1908–1909-cu illərdə Gəncə şəhər Dumasının deputatı seçilmişdir (4). Cahangir xan Xoyski tanınmış Xoyskilər nəslinə mənsubdur. Onun oğlu Əmiraslan xan Ali təhsilini Peterburq Universitetinin hüquq fakültəsində almışdı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Əmiraslan xan Xoyski Bakı qubernatorunun böyük köməkçisi vəzifəsində (1-ci müavini-vitse-qubernator), aylıq məvacibi 2700 manat idi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Əmiraslan xan Xoyski Bakı qubernatorunun böyük köməkçisi vəzifəsində (1-ci müavini-vitse-

qubernator), aylıq məvacibi 2700 manat idi. O, bu vəzifəyə Azərbaycan Cümhuriyyəti daxili işlər nazirinin əvəzi, general-mayor M. S. Ağabəyzadənin 25 sentyabr 1919-cu il tarixli əmri ilə qubernator Əmir bəy Nərimanbəyovla bir gündə təyin edilmişdi. Daha sonra Gəncə qəzasının rəisi işləmişdi.

Beləliklə, bu gün Fətəli xan Xoyski irsinin öyrənilməsi və təbliğ edilməsi zamanın tələbidir. İstər Fətəli xan Xoyski, istərsə də onun ailə üzvləri və silahdaşlarının mürəkkəb tarixi şəraitdə göstərdikləri cəsarət, diplomatik bacarıq və fədakarlıqları mütləq şəkildə yeni nəsillərə çatdırmaq hamımızın müqəddəs vətəndaşlıq borcudur. Şair gözəl demişdir: "Özünü vətəndaş zənn edən bir kəs, vətənin dərdinə yad qala bilməz".

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Fətəli xan Xoyskinin 150 illik yubileyinin keçirilməsi haqqında" 17 sentyabr 2025-ci il tarixli Sərəncamı.

2. Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. Bakı, Elm, 1990, 94 s.

3. "Azərbaycan Demokratik Cümhuriyyəti". Bakı, 1993.

4. Nəzirli Ş. Cümhuriyyət generalları. Bakı, Hərbi nəşriyyat, 1995, 212 s.

5. Fətəli xan Xoyski: həyat və fəaliyyəti. Sənəd və materiallar. Bakı, 1998, 152 s.

6. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, I və II cildlər, Bakı, "Lider nəşriyyat". 2004-2005.

7. Azərbaycan tarixi. 7 cilddə, V cild (1918-1920), Bakı, "Elm", 2008.